

Maks Lukado

# Mələyin danışdığı hekayə

*adı*

*tarix*

Çünki bizim üçün körpə doğuldu, Bizə oğul verildi, Hakimiyyət Onun çiyinləri üzərində olacaq, Onun adı Ecazkar, Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Əmin amanlıq hökmdarı olacaq.

*Jeşaya 9:6*

# Mələyin danışdığı hekayə

*Birinci Milad, səmadan görünüş*

Maks Lukado

…VƏ KƏLAM ALLAH

İDİ.

KƏLAM BƏŞƏR

OLDU

VƏ ARAMIZDA

YAŞADI…

*Yəhya incili 1:1,14*

Cəbrayıl!

Hökmdarın səsinin sədası ürəyimə toxundu. Mən qapının ağzındakı növbə yerimi tərk etdim və taxt-tac zalına daxil oldum. Məndən solda masanın üstündə Həyat Kitabı dururdu. Qarşımda Qüdrətli Allahın taxtı idi. Mən sönməz işığın dairəsinə daxil oldum, qanadlarımla üzümü örtdüm və diz çökdüm.

— Bəli, mənim Tanrım?

— Sən Səltənətimizə yaxşı xidmət etdin. Sən layaqətli elçisən. Elə bir hal olmayıb ki, sənə tapşırılan icra edərkən geri çəkiləsən, da ya təlaş keçirəsən. Canfəşanlığın heç vaxt zəifləmədi.

Mən başımı aşağı saldım. Eşitdiklərim mənə hədsiz xoş gəlirdi.

— Sən mənə nəyi hökm edirsən et, mən onu min qat artığı ilə yerinə yetirəcəyəm, Hökmdarım — deyə mən and içdim.

— Buna  şübhəm yoxdur, əziz elçim! — Onun sözlərində adətən Ona xas olmayan təntənə duyulurdu. — Səni çox böyük bir zəhmət gözləyir. Mənim hədiyyəmi Yerə çatdırmalı olacaqsan. Bir bax.

Mən başımı qaldırdım və Onun əlində qızıl zəncirdən sallanan mənə sarı uzadılmış şəffaf bir qab gördüm.

Ata dilləndi, O, çox ciddi idi.

— Bu qab hələ boş olsa da, tezliklə onda Mənim ən böyük nemətlərimdən biri olacaq. Onu sinəndə qoru.

Mən qabı Onun əlindən götürməyə hazırlaşdıqda xırıltılı bir səs məni dayandırdı:

— Bu nə qiymətli şeydir ki, Sən onu Yer üzünə göndərirsən?

Bu hörmətdənkənar sözlərin ilk səslərini eşitdikdə bel sütunum gərildi, iyrənc qoxunun gözlənilməz dalğasından daxilimdə hər şey silkələndi.

## MƏN QILINCIMIN DƏSTƏYİNDƏN YAPIŞDIM VƏ LÜTSİFERLƏ ÇARPIŞMAQDAN ÖTRÜ GERİ ÇEVRİLDİM

Atanın çiynimə enən əli məni dayandırdı.

— Qoy qalsın, Cəbrayıl. Ondan zərər gəlməz.

Mən bir addım geri çəkildim və Tanrının düşməninə nəzər saldım. Qara örtük onun bədənini gizlədir, başını və əllərini biləklərinə qədər bürüyürdü. Ətəyin altından onun üçbarmaqlı caynaqları uzun ayaqları görünürdü, əllərinin pəncələri ilan dərisi ilə örtülmüşdü, əl barmaqlarında uzun dırnaqları vardı. O, zalı bürümüş işıqdan üzünü qorumaqdan ötrü baş örtüyünü xeyli aşağı saldı, lakin aydınca görünürdü ki, işıq şüaları ona əvvəlki tək əziyyət verir. Xilas yolu axtararkən, mənə sarı çevrildi və bir anlığa örtüyün altından onun uzunsov sifət cizgiləri göründü.

— Gözlərini nə zilləmisən, Cəbrayıl? — deyə istehza ilə güldü. — Məgər məni yenidən görməyinə şad deyilsən?

Bu bədnam mələyə deməyə sözüm yox

idi. Yaddaşımda qorunub saxlanan obrazla indi gördüyümü müqayisə etməyə söz tapa bilmirdim. Mən onun Üsyana qədər necə olduğunu xatırladım: bizim qoşunların başında qürurla dayanmış, qanadlarını geniş açmış, əlində parlaq qılınc tutmuşdu. Bizlərdən hər kəs ona bənzəmək istəyirdi. Kim ona rədd cavabı verə bilərdi? Yumşaq, çiyinlərinə tökülən saçları və kömür kimi qara gözləri onu səmavi varlıqların ən gözəlinə çevirmişdi.

Aydın məsələdir ki, bizim Yaradandan sonrakı birinci gözəl idi. Lakin heç kəsin ağlına da gəlmirdi ki, Lütsiferi Tanrı ilə müqayisə etsin… yalnız Lütsiferin özündən başqa. Bir Allaha məlumdur, nə üçün iblis qərara gəlib ki, Yaradıcının Özü olaraq ona sitayiş etməlidirlər. Mənə yalnız o bəlli idi ki, mən onu Üsyan zamanından bəri görməmişdim; indi gördüklərim isə mənim daxilimdə ikrah dalğası qoparmışdı.

Mən ona nəzər saldım, onda keçmiş əzəmətini xatırladan nəsə bir cizgini görməyə çalışdım, lakin heç nə görə bilmədim.

— Görünür, Səndə mühüm bir yenilik olmalıdır? — deyə İblis söylədi, bunu deyərkən üz-gözündən onun üçün dözülməz olan nurdan əzab çəkdiyi hiss olunurdu.

Mənim Atam sakitcə və təmkinlə dilləndi:

— İkinci nemətin zamanı gəlmişdir.

Lütsifer istehza ilə güldükdə, hiss olundu ki, örtüyün altında gizlədilmiş bədəni titrədi:

— İkinci nemət, hə? Ümidvaram ki, o birincidən yaxşı olacaq.

— Sən birincidən narazımı qaldın? — deyə Ata soruşdu.

— Oho, heç də yox — o mənim yamanca xoşuma gəlir.

Bunu deyib, sümükləri çıxmış barmaqlarını irəli uzadaraq havada bu sözü yazdı:

# S E Ç İ M

— Sən Adəmə seçim imkanı verdin, — İblis istehza ilə dilləndi, — bəs o hansı seçimi etdi? O, məni seçdi! Onlar Bağdakı ağacın meyvəsini daddıqları gündən, mənim əsirlərimdir. Onlar mənimdir! Sən uduzdun. Hi-hi-hi...

— Yaman inamla danışırsan... — Ata cavab verdi, mən ondakı təmkinə mat qalmışdım.

Lütsifer bir addım irəli atdı, onun geyiminin ətəkləri döşəməni süpürdü.

— Hə, əlbəttə! Sən nə iş görürsən, mən onun astarını üzünə çevirirəm. Sən ürəkləri yumşaldırsan — mən onları sərtləşdirirəm. Sən adamların gözünü həqiqətə açırsan — mən həqiqət ilə onların arasına zülmət pərdə çəkirəm. Sən onlara sevinc, fərəh bəxş edirsən — mən bunları onlardan oğurlayıram.

O sərt bir şəkildə üzünü çevirdi və əməllərini tərifləyə-tərifləyə zal boyunca addımladı.

— Qardaşlarının Yusifə xəyanəti — mənim işimdir. Musa misirlini öldürdükdən sonra səhrada qaçqın həyatı yaşadı — bunu da mən elədim. Davud çimməkdə olan Bat-Şevaya gizlindən nəzər yetirdi — bu işi də mən qurmuşdum. Sən etiraf etməlisən — mən olduqca fərasətliyəm!

— Fərasətlisən? Ola bilər. Lakin müvəffəqsənmi? Xeyr. Mən sənin nə iş görəcəyini, onları görməzdən hələ xeyli əvvəldən bilirəm. Yusifə xəyanət etdilər, lakin Mən quraqlıq zamanı xalqımı xilas etməkdən ötrü həmin xəyanətdən faydalandım. Sən işi elə qurdun ki, Musa səhrada yaşamalı oldu, lakin bu ona Mənim Xalqımı həmin səhralardan keçirərək Misir torpağına aparmaqda kömək etdi. Bəli, Davud Bat-Şeva ilə şəhvətə qapıldı — lakin o öz günahlarından tövbə etdi! Sonralar minlərcə adam bu əhvalatdan xəbər tutaraq Davudun əldə etməyi bacardığını — tükənməz ne-

məti əldə etdilər. Səni yalanların və şirnikdirib yoldan çıxarmaların Mənim şəfqətim üçün bünövrəyə çevrildi. Sən, İblis, əvvəlki tək mənə xidmət edirsən. Sən bunu axı nə vaxt anlayacaqsan? Mənim işlərimə mane olmağa göstərdiyin miskin cəhdlərin yalnız xidmət edir niyyətlərimin yerinə yetməsin.

SƏNİN
DÜŞÜNDÜYÜN
BÜTÜN
ŞƏR ƏMƏLLƏRİ
MƏN
XEYİRƏ
ÇEVİRİRƏM.

İblis narazılıqla mırıldandı. Bu, onun boğazında qaynayan, haradansa içərisindən gələn bəd bir mırıltı idi. Əvvəlcə o güclə eşidilirdi, ardınca güclənməyə başladı və o dərəcəyədək artdı ki, qulaqbatırıcı bir hayqırtıya çevrildi. Bu səsdən yəqin ki, cəhənnəmin bütün dərinlikləri lərzəyə gəlmişdi.

Lakin bu səs Hökmdarda zərrəcə təəssürat oyatmadı.

— Özünü pismi hiss edirsən? — deyə O soruşdu.

Lütsifer zalda bir yerdə durub dincələ bilmir, söz tapmağa çalışarkən bərkdən nəfəs alır və eyni zamanda bir künc axtarırdı ki, oradan sözlərini dilə gətirə bilsin. Həmin sözü nəhayət ki, tapdı. İşıqdan qorunmaq üçün gölgəli bir yer tapmaq ona nəsib olmadı.

— Ey işığın Hökmdarı, yerdə heç olmasa

bircə adamı mənə göstər ki, həmişə düz yolda olsun və Sənin iradənə itaət etsin.

— Və sən bunu soruşmağa cəsarət edirsən? Axı Sən bilirsən ki, tək bircə nəfər kamil və günahsız adamın gətirdiyi qurban kifayətdir ki, bütün qalanları xilas etmək mümkün olsun.

— Mənim Sənin planlarından xəbərim var — və Sən onları həyata keçirməyi bacarmadın! Sənin xalqının oğulları arasında hər hansı Xilaskar yoxdur və olmayacaq. Onların arasında bir nəfər də günahsız adam yoxdur. Bircə nəfər də! — o, taxtın qarşısında dayandı və Tanrının övladlarının adlarını sadalamağa başladı: nə Musa, nə İbrahim, nə Lut, nə Rivqa, nə İlyas...

Ata Öz taxtından ayağa qalxdı və zal boyunca elə bir güclü nur seli axdı ki, Lütsifer səndələyərək yıxıldı.

# — MƏNİM ÖVLADLARIMA GÜLÜRSƏN? —

— İlahi səs guruldadı. — Sən miskin mələk, düşünürsən ki, çox bilirsən? Sənin bildiklərin çox azdır. Sənin fikirlərin özündən o yana getmir. Gözlərin öz istəklərindən uzağı görə bilmir.

Hökmdar irəli addımladı və Kitabı əllinə aldı. O, Kitabı Lütsiferə sarı döndərdi və hökm etdi:

— Yaxına gəl, yalançı, səni yalanlarınla ifşa edəcək Kəsin adını oxu. Sənin qala istehkamının qapılarını uçuracaq Kəsin adını oxu.

İblis dörd əl-ayağı üstündən yavaş-yavaş

qalxdı. Qorxaq canavar kimi dörd yanına göz gəzdirdi, Kitabın qoyulmuş olduğu masaya yaxınlaşdı və bir söz oxudu.

— İmmanuil, — o, dodağının altında bu adı mızıldadı və sanki öz gözlərinə inanmırmış kimi əlavə etdi: — "Allah bizimlədir?"

Bütün bu danışıq əsnasında ilk dəfə onun sifəti Ataya sarı çevrildi:

— Xeyr. Hətta sən bunu etməmiş olsan da. Hətta sən bu addıma getməmiş olsan da.

— Sən əvvəllər də heç vaxt mənə inanmazdın, iblis.

— Lakin *İmmanuil*? Bu ağılsızlıqdır! Sən Öz təsəvvürünə də gətirə bilmirsən ki, orada, Yerdə olmaq nə deməkdir! Xəbərin varmı mən oranı necə bir zülmətə bürümüşəm?! O çürüyür, onda şər hökmrandır. Yer...

— ORA MƏNƏ MƏXSUSDUR,

— HÖKMDAR ELAN ETDİ,

— VƏ MƏN ONU ÖZÜMƏ

QAYTARACAĞAM,

MƏN BƏŞƏR OLACAĞAM.

YARATDIQLARIMIN NƏLƏR

ƏKDİKLƏRİNİ ÖZÜMDƏ

HİSS EDƏCƏYƏM.

MƏN DÜNYANI ONLARIN

GÖZLƏRİ İLƏ

GÖRƏCƏYƏM.

— Bəs onların günahları?
— Mən onlara mərhəmət gətirəcəyəm.
— Bəs onların ölümləri?
— Mən onlara həyat bəxş edəcəyəm.
İblis susdu.
Tanrı dilləndi:
— Mən öz övladlarımı sevirəm. Sevən kəslər öz sevdiklərini azadlıqdan məhrum etmirlər. Sevgi qorxudan xilas edir. İmmanuil özündən sonra qorxubilməzlər tayfasını qoyacaqdır. Onlar səndən və sənin şər əməllərindən qorxmayacaqlar.
Bu fikirləri eşidən İblis yerində səndələdi. Onun səsi ağlamağa hazır olan, yalşa boğulmuş uşaq səsinə bənzəyirdi: “Yox, qor-xa-caq-lar!”.
— Mən onlara günahlardan nicat verəcəyəm, Mən onlara ölümdən nicat verəcəyəm. Günahlar və ölüm olmadıqda onların üzərində sənin heç bir hakimiyyətin olmayacaq.

İblis sümükləri çıxmış barmaqlarını yumub-açaraq yerində fır-fır fırlanmağa başladı. Nəhayət, dayandıqda elə bir sual verdi ki, cavabını mən özüm də bilmək istədim.

— Nə üçün? Nə üçün Sən bunu etmək istəyirsən?

Atanın səsi qətiyyətli və eyni zamanda məlahətli idi:

— Ona görə ki, Mən onları sevirəm.

Hər ikisi bir-birlərinə qarşı dayanmışdılar. Onların heç biri dillənib bir söz demirdi. Qarşımda kainatın iki əks qütbü dayanmışdı: nur libasına bürünmüş, libasının hər bir telinin nur saçdığı Tanrı və şərə bürünmüş, libasının hər bükümündə sanki şərin gizlənmiş olduğu İblis. Dinclik Vahimə ilə üzbəüz dayanmışdı. Müdriklik sərsəmliyə qarşı idi. Biri — xilas edən, digəri — böhtan atmaq və ittiham etmək istəyində olan.

Sonralar mən həmin dəqiqələrdə nələr baş

verdiyi üzərində uzun-uzadı fikirləşirdim. Hərçənd mənə elə gəlirdi ki, bu anı dəfələrlə təkrar-təkrar yaşamışdım, o hadisələr barədə xatirələrim məni mat qoymaqda davam edirdi. Heç vaxt, mənim ən ağlasığmaz fantaziyalarımda təsəvvürümə gətirə bilməzdim ki, mənim Hökmdarım o vaxt Onun etdiklərini edə bilər. Əgər O, tələb etsəydi ki, İblis rədd olub getsin, heç kəs Ona etiraz etməzdi. Əgər O, iblisi məhv etsəydi, buna kimin heyfi gələrdi? Əgər O, mənə onunla çarpışmaya girişməyi əmr etsəydi, məmnuniyyətlə döyüşə atılardım. Lakin Tanrı bunu etmədi.

İşıq dairəsindən Onun əlləri uzandı. Onun taxtından bu sözlər eşidildi:

— Mənə tabe olursanmı? Mənə qayıdarsanmı?

İblisin fikirlərini oxumaq mənlik deyildi, lakin mənə elə gəlirdi ki, onun daşlaşmış,

şərlə dolu ürəyi bir anlığa qəfildən yumşaldı. Başı yana əyildi, deyəsən, dəvət onu gözlənilmədən haqlamışdı. Bir an keçmədən başını qaldırdı.

— Harada çarpışacağıq? — deyə o meydan oxuyan bir səslə soruşdu.

Ata şər mələyin bu inadkarlığını görüb, dərindən nəfəs alaraq dedi:

— Qolqofa adlı təpədə.

— Əgər Sən oraya yetişə biləcəksənsə, əlbəttə çarpışarıq, — iblis istehza ilə dilləndi. O, çıxış qapısına yönəldi, qanadlarını düzəltdi və dik uçdu.

Ata bir anlığa hərəkətsiz dayandı, sonra yenidən Kitaba sarı döndü. Onun son fəslini açaraq, mənim indiyə qədər eşitmədiyim sözləri tələsmədən oxudu. Bunlar nə cümlə idi, nə də ifadə. Sadəcə sözlərdi, bir-birlərindən uzun pauzalarla ayrılmışdı:

# İSA
# MİSMAR
# ÇARMIX
# QAN
# MƏZAR
# HƏYAT

O, əllərini mən tərəfə uzatdı və mən yenidən Onun qarşısında baş əydim. Şəffaf qabı mənə uzadaraq izah etdi:

— Tezliklə bu şəffaf qab Mənim mahiyyətimlə, toxumum ilə dolacaq, onlar gənc bir qızın bətnində yerləşdiriləcək. Onun adı Məryəmdir. O, Mənim Xalqımın qızlarından biridir. Bu toxumun məhsulu Tanrının Oğlu olacaq. Bunu o qıza apar.

— Bəs mən o qızı necə tanıyacağam?

— Bu haqda narahat olma. Sən səhv etməyəcəksən.

Mən İlahi niyyəti başa düşə bilməzdim, lakin bunun önəmi yox idi. Mənim üçün başlıcası Onun hökmünü yerinə yetirmək idi. Mən başımı əydim və O, zəncirli şəffaf qabı mənim boynuma taxdı. Mənim təəccübümə rəğmən qab artıq boş deyildi. Ondan işıq saçılırdı.

— İsa... O qıza de ki, Mənim Oğlumun adını *İsa* qoysun.

Biz yola çıxdıq və bu necə bir təntənəli şəraitdə baş verdi! Baş Mələk Mikayıl bizə Cəsurluq Kitabından sözlər oxudu, Döyüşçülər oxuyur, Atadan xahiş edirdilər ki, Onun Ruhu bizim dəstəni müşayiət etsin. Ata aşağıya süzülən nur selində Öz taxtından qalxdı və bizə Öz sözləri ilə ürək-dirək verdi.

O, mələklərə dedi:

— Möhəkəm olun, Mənim xidmətçilərim.

Sonra mənə xatırlatdı:

— Cəbrayıl, sən toxumu sağ və salamat yerinə çatdırmağı necə ürəkdən istəyirsənsə, iblis də bir o qədər onu məhv etmək istəyi ilə alışıb yanır. Lakin qorxma. Mən səninləyəm.

— Hökm Sənindir, — deyə mən Ona cavab verdim və dəstənin başında öz yerimi tutdum. Yola düşmək zamanı idi. Mən şükran mahnısını oxudum və bununla da yola düşmək işarəsini verdim. Mələklər bir-birinin ardınca mənim mahnıma qoşuldular. Bir anlığa nura sarı baxdım və biz qanadlarımızı açaraq səmalara yüksəldik.

Biz Onun nurunun dalğasında uçurduq. Biz öz mahnılarımızın sözləri ilə birlikdə irəliyə üz tutmuşduq. Paraqon — mənim sağımda, Equs — solumda uçurdular. Onları

Ata Özü yaratmışdı ki, qabı qorusunlar. Qüdrətli. Farağat vəziyyətində. İtaətkar.

Qoşunlarımız o qədər çoxsaylı idi ki, sonu görünmürdü. Birlikdə biz çox böyük qüvvə təşkil edirdik. Biz bütün kainatı keçib gedərək ulduz fırtınasında uçurduq — mən başda, minlərcə mələklər isə mənim arxamca. Arabir geriyə çevrilərək, səssizcə qalxan və eyni bir ritmlə enən gümüşü qanadların bitib-tükənməz axınının yaratdığı mənzərədən ləzzət alırdım.

Bu sayrışan axından fasiləsiz olaraq, qarşısıalınmaz şükran sədaları eşidilirdi:

— Tanrımız böyükdür və bütün şərəflərə layiqdir!

— Yalnız tək O layiqdir!

— Qüdrətli hökmdarlar Hökmdarı və böyüklər Böyüyü!

— Bu vuruş — İlahi vuruşdur!

Bu missiya üçün mən ən güclü mələklə-

ri seçmişdim, ona görə ki, yalnız ən güclülər qarşıda çarpışmalı olacağımız düşmən qarşısında duruş gətirə bilərdilər. Mələklərdən hər biri istəyirdi ki, onu seçsinlər, lakin mənimlə yalnız ən mahir və hazırlıq keçmiş səma düyüşçüləri yola çıxmışdılar.

Biz Emmaniya bürcündəki Ebon qalaktikasından yan ötdük. Gözümün ucu ilə baxdıqda Eksalonun, Ataya sadiq Tanrı Övladlarının sayına görə onu əhatə etmiş planetləri sayrışdığını gördüm. Biz Klarion bürcündən sürətlə ötüb keçdik və Daria ulduz çevrəsinə daxil olduq.

İşıq saçan qab boynumdan asılmışdı və onun sirri mənim üçün sirr olaraq qalırdı.

Arxadan Sofionun yumşaq səsini eşitdim. Ata ona müdriklik bəxş etmişdi, və mən Sofionu özümlə bir çox səfərlərə götürmüş-

düm. Onun hər zaman bir vəzifəsi olardı. «Uçuşumuz zamanı həqiqəti mənə xatırlat» — deyə hər dəfə ona əmr edərdim. İndi də eynilə hərəkət edərək bu sözləri dedi: “Lütsifer — yalanların atasıdır. Onda heç bir həqiqət yoxdur. O gəlir ki, oğurlasın, öldürsün, məhv etsin”.

Qəlbim rəşadət və mətinlik duyğuları ilə dolduqca, sürətim də artırdı. Biz bilirdik ki, döyüşü sadəcə uduza bilmərik. Lakin ağlımıza da gəlmirdi ki, vuruşma bu tezliklə başlansın. Biz Zaman Silsiləsini keçər-keçməz Paraqon səsləndi:

— Döyüşə!

Birdən aşkar etdim ki, torun içindəyəm. Mələklərin sıraları qarışdı, bir-birləri ilə toqquşdular. Bizim dəstənin hətta ən son sırası da tələdən yan ötməkdən ötrü həddən artıq sürətlə uçurdu. Bir an keçmiş hər şey bir-birinə qarışdı.

# QANADLAR QANADLARA ÇARPILDI. MƏLƏKLƏR MƏLƏKLƏRLƏ TOQQUŞDULAR.

Biz qılınclarımızın dəstəyindən yapışmağa macal tapmadan, toru elə bərk dartıb sıxdılar ki, tərpənməyə halətimiz qalmadı. Mən onların istehzalı səslərini eşitdim:

— Budurmu, yaxşıların ən yaxşısı?

— Onları dibsiz uçuruma dartıb aparaq!

— İndi bilərsiniz ki, kainatın əsl ağası kimdir!

Lakin onların sevinci çox sürmədi. Hökmdarım məni şərin qurduğu tor ilə rastlaşmağa hazırlamışdı. Nə etməli olduğumu bilirdim.

— MÜQƏDDƏSDİR, MÜQƏDDƏSDİR, QADİR TANRI! — deyə mən səsləndim.

— MÜQƏDDƏSDİR, MÜQƏDDƏSDİR, QADİR TANRI! — mən təkrar-təkrar aləmlərin Sahibinə mədhiyyələr oxuyurdum. Mələklər bunu eşitdilər və mənim mədhlərimə qoşuldular.

Həqiqətin sözləri ilə qüvvəsi zəifləyən cəhənnəm köpəkləri toru boşaltdılar və biz onu yarıb çıxdıq.

— Tanrı ona mədhiyyələr oxuyanları sevir! — deyə Sofio təntənə ilə səsləndi.

Sərbəstliyə çıxan kimi öz işıq qılınclarımızdan yapışdıq və onları qarşımızda tutaraq, sıralarımızı elə sıx birləşdirdik ki, kənardan baxdıqda bizim dəstə parlaq bir kürəyə bənzəyirdi. Gözləri qamaşan şeytanlar vurnuxur, bir-birləri ilə toqquşur və qaçmağa üz tuturdular. Mən öz mələklərimin bir

hissəsini onları təqib etməyə göndərdim. “Elə edin ki, onlar bir daha qayıtmasın”, — deyə onlara əmr etdim.

Əvvəlcə bir, sonra digər cinahımızı gözdən keçirdim və aşkar etdim ki, itkilərsiz ötüşmüşük. Bu toqquşma bizim qətiyyətimizi yalnız möhkəmlətdi. Mən oxumağa başladım və bizim qılınclardan və mədhiyyələrimizin musiqisindən saçılan nur selinin yuduğu yolumuza davam etdik.

Biz seçilmiş qalaktikanın sərhədində yerləşən altun Eskolad planetinin yanından ötüb keçdik. Bizlərdən hər biri bu ulduzu yaxşı tanıyır. Müxtəlif tapşırıqları yerinə yetirərkən tez-tez onun yaxınlığında oluruq. Bizim ən yaxşı xatirələrimizin bu bürclə bağlı olmasına baxmayaraq, burada bir dəqiqə də ləngimədik. Yerinə yetirməli olduğumuz tapşırıq olduqca mühüm idi.

— Cəbrayıl! — deyə Paraqon məni səslədi. — Oraya, uzaqlara, bir bax!

Belə bir görkəmdə iblis əvvəllər heç vaxt rastıma çıxmamışdı. Uzun, axçalı boynunda çaqqal başına, əjdəha gövdəsinə malik idi. Onun qanadları o qədər geniş açılmışdı ki, onların arasında mənim bir dəstə döyüşçüm yerləşə bilərdi. Onun dörd pəncəsindən hər biri ayrılıqda bir mələyi vurub sarsıda bilərdi. "Bu kimdir?" — deyə mən Paraqondan və Equsdan soruşdum, lakin mənə cavabı Sofio verdi.

— Bu Flumardır.

— Flumar? Ola bilməz!

Üsyana qədər o bizim ən yaxşı müğənnimiz və ən ləyaqətli döyüşçülərimizdən biri idi. Çox vaxt onu uçanların hamısından öndə, qüdrətli qanadlarını ahənglə çalaraq irəli şığıyan görmək olardı. Oxuduğum mahnıların bir çoxunu mən ilk dəfə Flumarın ağzın-

dan eşitmişdim. *"İndi ona nə olub belə?"* — deyə mən fikrə getdim.

Hanı onun təmiz gözləri və bəmbəyaz libası? Sevinc, fərəh saçan sifətinə nə oldu? Ona yaxınlaşanda şərin iyrənc qoxusu məni diksindirdi. Hücumu dəf etməyə hazırlaşaraq qılıncımı sıyırdım. Lakin mənə ünvanlanmış sualının olacağını heç gözləmirdim.

— Dostum, nə vaxtdan bəridir rastlaşmırıq? — onun səsini nəvazişli adlandırmaq olardı, lakin bu sözü iblisə, özü də ən baş iblislərdən birinə aid etmək mümkün deyildi.

— Elə gəlir ki, aradan çox vaxt keçməyib, cəhənənm zəbanisi! — deyə mən ötüb keçərkən səsləndim. Mən özümə o dərəcədə güvənmirdim ki, onun qarşısında ayaq saxlayaydım. Öz hisslərimə bel bağlamırdım və öz imkanlarımı qədərindən yüksək qiymətləndirmirdim. Uçuşu davam etdirdim,

lakin o məndən geridə qalmadı, dərhal mənlə bərabərləşdi və yanımca uçmağa başladı.

— Cəbrayıl, mənə qulaq as!

— Sənin sahibin — yalançı və yalanların atasıdır.

— Yox! İndi o başqalaşıb, — deyə Flumar etiraz etdi.

Mən uçuşumu yavaşıtmadan əvvəlki sürətlə uçurdum. Gözümün ucu ilə baxıb gördüm ki, Equs və Paraqon bir qədər aralıdan uçurlar, qılınclarının qəbzəsindən tutublar və mənim komandamı gözləyirlər. Mən dua etdim ki, onlar məni narahat edən fikirləri gözlərimdən oxuya bilməsinlər. Əgər Flumar məndən əvvəlki ilə müqayisədə onqat zəif olsaydı belə, biz özümüzə gələnə qədər, bir göz qırpımında bütöv bir alayı məhv edə bilərdi. Bizim kimilər arasında o ən güclüsü idi.

Flumar öz nitqini davam etdirirdi.

— Sən yolda olanda möcüzə baş verib. Mənim ağam sənin bizim döyüşçüləri məhv etdiyin qüvvəni sezə bilmişdir. Onu səndəki qüvvə və onun öz zəifliyi narahat edir. Bundan başqa, o taxt zalında eşitdiyi lütfkar təklifdən çaşıb qalmışdır. O deyir ki, sən orada olmusan, Cəbrayıl. Sən axı bu söhbətin şahidi olmusan, elə deyilmi?

Mən cavabında heç bir söz deməsəm də, Tanrının uzanmış əli yenidən xatirimdə canlandı. Şeytanın başının necə endiyini, başlanğıcda məndə oyanmış təəssüratı xatırladım. Doğrudanmı, onun qəlbi yumşalmışdır?

Flumarın səsində həyəcan duyulmağa başladı:

— Gəl gedək, Cəbrayıl! Lütsiferlə özün danış. Onunla öz Hökmdarın barədə danış. Öz Hökmdarının sevgisi barədə danış. O səni eşidər. Gəl birlikdə gedək və onu peşimanlıq tövbəsi üçün yola gətirək.

Flumar kəskinliklə irəli süzdü və mənim yolumu kəsdi. Mən dayanmağa məcbur oldum. O, nəhəng bir qaya kimi qarşımda ucaldı. Mən nəyi desən gözləyirdim, yalnız bundan başqa. Mən Tanrıma dua etdim, necə hərəkət etməli olduğumu soruşdum.

— Birlikdə, Cəbrayıl, sən və mən, biz yenidən birlikdə olacağıq! — əjdəha cildindəki iblis sözlərinə davam edirdi. — Bu gerçəkdən mümkündür! Biz yenidən birləşə bilərik. Şeytan tərədüd içindədir, mənim ürəyimdə də dəyişiklik özünü hiss etdirməyə başlamışdır.

Birdən ağlıma fikirlər gəldi. Necə hərəkət etməli olduğumu anladım. Və mənim duama cavab verdiyi üçün Tanrıya minnətdarlıq bildirdim.

— Deməli, Flumar, sən deyirsən ki, sənin ürəyində dəyişiklik baş vermişdir?

O öz nəhəng başını tərpətdi. Mən Paraqona

və Equsa sarı çevrildim. Onların üzlərindəki qorxu tədricən maraqla əvəzlənməyə başlamışdı.

— Özü də sən bizə qoşulmaq istəyirsən, eləmi?

— Hə, hə, Cəbrayıl! Üsyan bir yanlışlıq olmuşdu! Gedək, səninlə birlikdə Lütsiferlə danışmalıyıq. Mən yenidən səmalara qayıtmaq istəyirəm! Mən öz əzəli möhtəşəmliyimi qaytarmaq istəyirəm!

Bu anda mənim planım qəti olaraq hazır idi.

— Sənin söylədiklərin sadəcə gözəl səslənir, Flumar!

Mən yaxınlıqda dayanmış mələklərin gözlərində təəccüb əlaməti oxudum.

— Bizim Tanrı — xeyrin Tanrısıdır, — deyə elan etdim. — O qəzəbini göstərməkdə gecikir, bağışlamağa isə tələsir. Heç şübhəsiz, sən öz günahına görə tövbə edəndə O səni eşitmişdir.

Bir qədərləngiyib, yuxarıya uçdum ki, Flumarla üzbəüz dayanım və onun düz gözlərinin içinə baxaraq dedim:

— Onda gəl birlikdə Tanrıya mədhiyyələr oxuyaq!

Flumarın üzündən bir qorxu kölgəsi ötüb keçdi. Sofio işi haraya apardığımı başa düşərək, həqiqəti elan etdi:

— RƏBB ALLAHA

SƏCDƏ ET!

— Lakin... fəqət... Mən sözləri heç də xatırlaya bilmirəm.

İndi, Flumarın gerçək niyyəti aşkar olan kimi, döyüşçülərim onu əhatəyə almağa başladılar. Mən bir az da irəli gəldim və möhkəm səslə dedim:

— Axı, sən bizim Hökmdara baş əymək arzusundasan. Sən mədhiyyənin sözlərini unutmayıbsan. Dodaqlarını aç və Tanırının adını dilə gətir!

Flumar ətrafına göz gəzdirdi, lakin qaçmağa yer yox idi.

— Bizə qoşul! — hökmlü səslə dedim. — Əgər qəlbin doğrudan da əvvəlki kimi olmuşsa, bizimlə birlikdə Tanrıya təzim et.

Qılıncımı qınından çıxarıb əlavə etdim:

— Əgər istəmirsənsə, mən çarpışmağa hazıram!

Flumar anladı ki, onun hiyləsi baş tutmamışdır. Onun dodaqları Bütün Aləmlərin Pənahı olan Tanrıya mədhiyyələr oxuya bilmirdi — buna qabil deyildi. Onun qəlbi iblisə məxsus idi. Qılıncını çəkib irəli cumdu, bizi qonşu qalaktikaya geri atmağa hazırlaşırdı. Yalnız bizim qüvvəyə bel bağlamış olsaydıq, bunu etmək ona nəsib ola-

caqdı. Hətta biz qüvvələrimizi birləşdirmiş olsaydıq belə, onun qüdrətinin qarşısında duruş gətirməyi bacarmazdıq. Lakin bizə yuxarıdan qüvvə verilmişdi və İlahi qüdrətlə möhkəmlənərək iblisin üzərinə cumduq.

Flumar zərbəsini endirməyə macal tapmamış, nur qılıncı onun gövdəsini deşib o üzündən çıxdı. İblisin dərisi qırışdı və mum kimi əriyib tökülməyə başladı. Sümüklərindən sallanan əti ləkələrlə örtüldü və çürüyüb tökülməyə başladı. Onun cəhəngindən köpük axmağa başladı. Ağzını açdı və indiyədək kainatın eşitdiklərindən ən yazıq bir səslə inildədi.

— Məni öldürün! — deyə dişlərini şaqqıldadaraq yalvardı. Flumar bilirdi ki, ölüm onun üçün Lütsiferdən gözlədiyi cəzaların əzabları ilə müqayisədə ən gözəl nemətdir.

— Mələklər qiyamət gününə qədər salamat qalacaqlar, — deyə ona xatırlatdım. —

Yalnız Ata əbədilərdən birini həyatdan məhrum edə bilər.

Qılınclarımız parıldadı və ölüm mələyini cəhənnəm girdabına yola saldı. Bir anlığa bu varlığa yazığım gəldiyini hiss etdim. Lakin satılmış olduğu şeytanın vədlərinin ardınca necə tələsərək cumduğunu xatırladıqda, bu hiss tez ötüb keçdi.

Mən Tanrıya mədhiyyələr oxudum, bizim qələbəmizə və təhlükədən bizi sovuşdurduğuna görə Ona təşəkkür etdim. Məni yola salarkən Atanın söylədiyi peyğəmbəranə sözlər yadıma düşdü:

— Ürəyimiz toxumu Yerə çatdırmağı nə qədər çox istəyirsə, iblis də onu məhv etməyi bir o qədər istəyir.

Əllərimizi qaldıraraq Onun adını bütün digərlərdən uca tuta-tuta yolumuza davam etdik. Artıq Günəş sisteminə çatmışdıq. Başımı qaldırdım və bu mənim döyüşçülərim

üçün siqnal oldu, onlar sürətlərini azaltdılar. Yerin havası bizi vurdu və mən onu gözdən keçirməyə başladım. Mən Əhd xalqının məskun olduğu ensiz quru zolağı tapmağa çalışdım

*"Bu kürə onun gözlərində nə qədər qiymətlidir!"* — deyə mən düşündüm. Daha böyük həcmli, daha möhtəşəm planetlər var. Lakin onlardan heç biri Adəm və övladlarına bunun qədər yaxşı yaramırdı. Budur onların nicat tapmalarının saatı yaxınlaşır. Bizdən aşağılarda balaca bir şəhərcik vardı, Tanrının seçdiyi qız orada yatmışdı.

— Görürəm ki, sağ-salamat buralara çatdınız.

Səs ən çox qorxduğum varlığa məxsus idi. O, düz qarşımızda dayanmışdı, odur ki, dayanmalı olduq.

— Sən öz əvvəlki libasını geyinmisən, Lütsifer, — deyə bu halın gözümdən qaçmadığını qeyd etdim.

Mənimlə olan mələklər, onun bu görkəmini görüb, çaşqınlığa düşmüşdülər. Mən özüm də

çaş-baş qalmışdım: onu taxt zalında görərkən məndə ikrah hissi oyadan bu deyildimi?

Onun xırıltılı danışığı cingiltili baritona çevrilmişdi. Sümükləri çıxmış gövdəsi harmonik quruluşa malik idi və gözəl bir görünüş almışdı. Onun geyiminin parlaqlığı ilə müqayisədə boz və tutqun görünürdü. Onun səsi ilə müqayisədə bizim səslərimiz miskin ciyilti kimi çıxırdı. Biz qılıncımızı qaldırdıq, lakin onun qılıncının parıltısı ilə müqayisədə onlar Günəşin işığı ilə müqayisədə şam işığı qədər tutqun idi.

Döyüşçülərim iblisə məğlublar kimi baxırdılar. Yürüşə yol düşməzdən əvvəl Mikayıl onları təhlükə barədə xəbərdar etməyə çalışmışdı, lakin heç nə Lütsiferlə görüşə hazırlaya bilməz. Heç bir söz demədən, adamı ovsunlaya bilir. Qılıncını qaldırmadan, tərksilah edə bilir. Toxunmadan — şirkindirib yoldan çıxara bilir. Mələklərin cüzi bir

müqavimət göstərmədən ona tabe olduqları hallar bəlli idi.

Fəqət Atanın sözü əvvəlki tək ürəyimin simlərini tərpədirdi: “O lap başlanğıcdan yalansı idi”.

İblis mənə zərif bir təbəssümlə baxırdı.

— Cəbrayıl, Cəbrayıl. Sənin adını nə qədər dilə gətirmişəm? Nökərlərim bunu təsdiq edə bilə — bütün bu illər ərzində həmişə səni düşünmüşəm. Sən — sadiq mələksən, indi sənin sədaqətin mükafatlandırılır. Sənə vəzifələrin ən böyüyü tapşırılmışdır.

O, başını geri atdı, simasını təbəssüm bürüdü. Bu kinli bir gülüş deyildi, Tanrının özünün gülüşünə bənzəyirdi. *O bizim Hökmdarı necə də bacarıqla təqlid edə bilirdi!*

— Mən təqlid etmirəm, — deyə dilləndi, sanki mənim fikirlərimi oxumuşdu. — Mən səmiimyyətlə gülürəm. Mən sənə görə sevinc içərisindəyəm. Sən sınaqdan keçdin.

Mənim üzümün ifadəsindən nə qədər çaş-baş qaldığım yəqin ki, hiss olunardı.

— Məgər O Özü bu barədə sənə bir söz deməyib? Bizim Səmavi Atamız nə qədər müdrikdir! Bunu sənə söyləmək şərəfini mənə verdisi mənim üçün böyük nemətdir. Bütün bunlar sənin sədaqətinin sınağı idi. Kədər Günü, Üsyan, mələklərin rəzil olması, taxt zalına mənim səfərim, tor, nəhayət, Flumar. Bütün bunlar səni sınaqdan keçirmək və səni möhkəmləndirmək üçün idi. İndi isə, ey Cəbrayıl, Hökmdarımız və Onunla birlikdə mən səni təbrik edirik! Sənin sədaqətin məlum oldu!

Düşünürdüm ki, Lütsiferin bütün hiylələri, onun hər bir bicliyi, hər bir yalanı mənə bəllidir. Düşünürdüm ki, onun bütün biclikləri mənə əvvəlcədən məlumdur, lakin yanlışlığa yol vermişdim. Aman, o necə də məkrli imiş! Sözləri elə deyirdi ki, sanki ürəyindən gəlir!

— DOĞRUDANMI,

SƏN GERÇƏKDƏN

DÜŞÜNÜRSƏN Kİ,

MƏN ALLAHA

QARŞI ÜSYAN EDƏ

BİLƏRƏM? — deyə soruşdu.

— HƏR BİR HƏQİQƏTİN

ATASINA QARŞI?

GÖR AĞLINDAN NƏLƏR KEÇİR!

AXI MƏN ONU SEVİRƏM!

Onun nüfuzedici, dərin hissiyyatlı səsi vardı.

— Məni O yaratdı. Mənə sərbəst iradəni O bəxş etdi. Bütün bu müddət ərzində mən Ona uzaqdan sitayiş etməyə məcbur idim ki, sən sınaqdan keçirilə biləsən. İndi isə, dostum mənim, Ata tərəfdən sənə təyin edilmiş sınaqdan üzüağ çıxdın. Bunun üçün sənə lazım gələ bilər ki, mənim səmalara səfərimin şahidi olasan? Sənin sədaqətini sınaqdan keçirmək üçün hər şey Tanrı tərəfindən dahiyanə tərzdə düşünülmüş, əvvəlcədən hazırlanmış ssenari əsasında gedirdi.

Onun sözləri mənim qəlbimdə uzun sürən narahatlıq kimi əks-səda verdi. Əllərim yanıma düşdü, onunla birlikdə mənim qılıncım və qalxanım da aşağı endi. Beynimdə fikirlərdən parçalar ildırım sürəti ilə doğulur və yox olurdu. *Bu nə deməkdir? Bu nə qüvvədir belə? Bilirəm ki, o — şərdir, lakin qüvvəmin tükən-*

*diyini hiss edirəm. Lakin ona qarşı məhəbbəti və nifrəti, etimadı və ikrahı eyni vaxtda hiss edirəm.* Equsa və Paraqona nəzər salmaqdan ötrü çevrildim. Onların silahları da yanlarına düşmüşdü, yalançının sözlərinə inanmağa başladıqca onların üzlərinin sərt ifadəsi yumşalmaq üzrə idi. Onların arxasında bizim qoşunların sıraları zəifləməyə, qılınclarının parıltısı tutqunlaşmağa başlamışdı. Bu sarsıdıcı bir an idi. Cəmi bir neçə sözlə Lütsifer seçmə döyüşçülər legionunu mütiləşdirə bilərdi. *Doğrudanmı, bu həqiqətdir? O az qala Ata kimi görünür, sözləri demək olar Atanın sözləri kimi səslənir...* Biz hamımız yavaş-yavaş onun təsiri altına düşməyə başlamışdıq.

Hamı, bir nəfərdən başqa. Aralıdan gözümə Sofio sataşdı. Onun gözləri Lütsiferə zillənməmişdi — onun gözləri yuxarılara baxırdı. Onun bir-bir dilə gətirdikcə get-gedə ucalan sözlərini eşitdim.

— NƏ ÖLÜM, NƏ HƏYAT,

NƏ MƏLƏKLƏR, NƏ İBLİSLƏR,

NƏ İNDİ, NƏ DƏ GƏLƏCƏK,

HEÇ BİR YÜKSƏKLİK,

HEÇ BİR DƏRİNLİK

VƏ SƏNİN

YARATDIQLARINDAN

NƏ HEÇ BİR BAŞQASI

BİZİM İLAHİ SEVGİDƏN

AYIRA BİLƏR!

Sofionun duası işıq şüası kimi səmalara ucalırdı. Mən gözlərimi qaldırdım və bu işıq sütununun zirvəsində ayaq üstə dayanmış Atanı gördüm. Onun şöhrətinin parıltısında bircə baxışı kifayət idi ki, bütün şəkk-şübhələr dağılsın. Belimi kəskinliklə düzəltdim və qalxanı üzümə tutdum. Lütsifer ilk dəfəydi Sofionu dua edərkən görürdü. Onun üzündən təbəssüm yox oldu, lakin ardınca böyük bir iradi qüvvə ilə özünü yenidən gülümsünməyə məcbur etdi.

İndi düşmən iti-iti danışırdı, onun səsində əvvəlki kəsici, tükürpədən qırıq-qırıq hecalar eşidilirdi.

— Ata bizi gözləyir, Cəbrayıl. Gəl onun qələbəsinin əlaməti olaraq bu qabı çilik-çilik edək. Gəl üzümüzdə sevinc və fərəh onun yanına qayıdaq. Sənə tapşırılanı yerinə yetirdin. Sən mükafatlanacaqsan. Sənə eynilə məndəki kimi taxt veriləcək. Sən Tanrı kimi olacaqsan!

Əgər bunadək iblisin cüzi olsa da şansı vardısa, bu sözləri deyən kimi onu da itirdi.

— Yalançı! — deyə mən səsləndim. — Mən artıq bu sözləri və bu vədləri eşitmişəm. Bunlar yalandır və sən yalanın atasısan. Sən üfunət saçırsan! Cəhənnəm ol!

Qılıncımın Lütsiferi dayandıra bilməyəcəyini bilsəm də, hər halda onu qaldırdım.

— Qadir Tanrım, bizə nicat ver, — mən yalvardım və O bizə nicat verdi.

Qılıncım elə parladı ki, əvvəllər heç vaxt belə parlamamışdı, ondan saçılan işıq o qədər parıltılı idi ki, Lütsifer ovucları ilə gözlərini tutdu və lənətlər yağdırdı.

Mən yanımda olan mələklərə sarı çevrildi — onlar çarpışmağa tam qətiyyətli tərzdə öz sıralarında idilər. Ovsun öləzimiş və əvvəlki cəsarət onlara qayıtmışdı. Onların doğramağa hazır olan qılıncları qaldırılmışdı. Saniyələr ötdükcə işıq daha parıltılı şəkil

alırdı və hamı mənim artıq Atanın taxt zalında rastlaşmış olduğum məxluqu gördü. Təkcə baş örtüyü indi geriyə atılmışdı, dəri haşiyəli, öz görünüşü ilə səmanın mavi təmizliyini korlayan quru kəlləsi açığa çıxmışdı.

Mən qılıncımı iblisin düz ürəyinin başına yeritdim. Həmin məqamda Equs qılıncını ona başqa tərəfdən sancdı. İblis dözülməz ağrıdan qıvrılaraq qışqırdı, bu vaxt bizim qılıncların onun sinəsinə toxunan tiyələrində təmiz səmavi alov dilləri oynadı. Düşmənin daxilindən hədsiz yalqızlıqdan doğan fəryadın, nifrətin və qorxunun qışqırtısı gəldi.

Sonuncu, ümidsilikdən doğan cəsarəti ilə Lütsifer irəli atılmaq üçün qatlandı, boynumdan sallanan səmavi qabı pəncəsi ilə qapmaq üçün irəli cumdu. Mənasız cəhd idi. Paraqonun qılıncı parladı və düşmənin biləyinə endi və kəsilmiş pəncə uçub zülmətlərin qoynuna getdi.

Bizi elə bir dözülməz üfunət dalğası bürüdü ki, qalxanları üzümüzə tutmalı olduq. İblis geri atıldı, başı onun geriyə sallanırdı, sifəti çəkdiyi ağrılardan əyilmişdi. Bir an əvvəl yaltaqlıq və nəvaziş saçan səsi kinli fısıltıya çevrilmişdi.

— Mən qayıdacağam, — deyə Lütsifer and içdi, — mən qayıdacağam!

Sofio ikrahla başını yellədi.

— İŞIQ MƏLƏYİ ŞƏKLİNİ ALIR, — deyə o dilləndi.

İblis qəfil göründüyü kimi, tezliklə də gözdən itdi. Bu vaxt mələklər qoşunu İlahini alqışlayan səsləri ucaldı.

— Müqəddəsdir, müqəddəsdir, müqəddəs Hökmdarımız Ordular Rəbbi!

— Hökmdarlar Hökmdarı və rəbbilərin Rəbbi!

Bizim mədhlərimiz yüksəlib Ataya çatanda, üzünü mənə tutub danışmağa başladı. Mən onun səsini elə aşkar eşitdim ki, sanki O mənim yanımda dayanıb danışırdı.

— Get, Cəbrayıl, get, Məryəmə de!

Alqışlar və mədhlər dalğasının təsiri altında bu dəfə təkbaşına uçdum. Çevrəni tədricən daraldaraq, buludların arası ilə yavaş-yavaş enir, Yerə yaxınlaşırdım. Məndən aşağılarda Məryəmin doğma şəhəri yerləşirdi. Ata haqlı imiş — mən onu o dəqiqə tanıdım. Onun qəlbi işıqlı idi və ona kölgə düşməmişdi, ruhu indiyədək gördüyüm bütün insanların ruhundan təmiz idi.

Mən endim və onun arxa tərəfində dayandım.

— Məryəm, — deyə onu qorxutmamaq üçün yavaşca dillənərək çağırdim.

O çevrildi, lakin heç nə görmədi. Yadıma düşdü ki, mən onun üçün əvvəlkitək gö-

rünməzəm. Onun qarşısında qanad çaldım və cismani şəkil aldım. İşıqdan gözü qamaşdığından əlləri ilə üzünü tutdu, mən qapıya doğru geri çəkildim.

— Qorxma! — dedim.

Mən bunu deyən kimi, o, gözlərini səmalara qaldırdı.

Mən Atanı müdrikliyinə görə alqışladım. Onun qəlbi ləkəsiz, təmiz və açıq idi.

— Sənə salamlar olsun, — deyə davam etdim. Tanrı sənə yar olsun.

Onun gözləri genişləndi və geri çevrildi, sanki baş götürüb qaçmaq istəyirdi.

— Məryəm, heç nədən qorxma. Sənə Tanrıdan nemət gəldi. Sən bətnində onu bəsləyəcək və Oğlan doğacaqsan, Onun adını İsa qoyarsan. O, böyük bir məqam sahibi olacaq və Ona Uca Yaradanın Oğlu deyəcəklər. Ulu Tanrı ona Davudun taxtını, Onun atasının taxtını bəxş edəcək. O, əbədi olaraq

Yaqub evi üzərində hökmranlıq edəcək və onun hökmranlığının sonu olmayacaq.

O məni dinləyirdi, lakin eşitdikləri onu çaşbaş qoymuşdu.

— Axı bu necə baş verə bilər? Axı mən heç vaxt kişi ilə olmamışam.

Cavab verməzdən əvvəl mən üzümü göylərə tutdum. Ata dayanmışdı və mənə Öz xeyir-duasını verirdi.

Mən davam etdim:

— Müqəddəs Ruh sənin varlığına yerləşcək və Uca Yaradanın qüvvəsi Səni himayə edəcək və qoruyacaq; ona görə də sənin doğacağın körpə Müqəddəs sayılacaq, Tanrının Oğlu adlanacaq. Axı, Tanrı üçün mümkünsüz heç nə yoxdur.

Məryəm mənə baxdı və baxışlarını səmalara qaldırdı. Xeyli vaxt beləcə hərəkətsiz qaldı. Bu, o qədər çəkdi ki, mən də gözlərimi göylərə qaldırdım. O, Tanırının mələkləri-

ni görürdümü? Səmalara gedən yolu görürdümü? Bu, mənə bəlli deyildi, lakin baxışlarını endirəndə gördüm ki, gülümsünür.

— Hə, indi anlayıram. Mən — Tanrının köləsiyəm, Ona qulluq etməyə hazıram. Qoy mənimlə sən deyən olsun.

O, bu sözləri dilə gətirən kimi onun bətnindən nur saçıldı. Mən boynumdan asılmış qaba baxdım. O boş idi.

Yusif uzunqulağını yolun kənarına çəkdi və yorğun-yorğun ovcu ilə alnını ovxaladı.

— Gəl gecələməyə bir yer tapaq. Qaranlıq düşənə qədər Bet-Lexemə çata bilməyəcəyik.

Məryəm cavab vermədi. Yusif uzunqulağın yanına gəldi və arvadının üzünə baxdı. O, yatırdı! Başı sinəsinə enmişdi, əlləri qarnının üstündə idi. Uzunqulağın belində necə yuxuya gedə bilmişdi?

Birdən Məryəm başını qaldırdı, gözlərini açdı:

— Gəlib çatdıq?

— Yox, — deyə əri gülümsündü, — hələ bir neçə saatlıq yolumuz qalır. Bir bax, irəlidə qonaq evi var. Bəlkə orada gecələyək?

— Ah, Yusif, mənə qalsa, birtəhər Bet-Lexemə yetişmək gərəkdir, — o sözünə ara verdi. — Bir də, yəqin ki, azacıq dincəlmək pis olmazdı...

Yusif dərindən nəfəs aldı, onun əlini sıxdı və eşşəyini yedəkləyərək bir az aralıdakı miskin görünüşlü tikiliyə sarı addımladı.

— Burada adam çoxdur, — Yusif fikir verdi və Məryəmin düşməsinə kömək etdi. İkilikdə yerləşə biləcəkləri oturacaq yeri tapmaları bir neçə dəqiqə çəkdi.

— Gedim yeməyə bir şey tapım. İndi qayıdıram.

Yusif adamları yara-yara irəli getdi.

Qayıdanda gördü ki, onun Məryəmin yanındakı yerində hansısa bir qadın özünə yer edir. Məryəm etiraz etmək istəyirdi, lakin sonra gülümsündü və gözləri Yusifin gözlərinə sataşanda, çiyinlərini çəkdi.

— *Öz xasiyyətindi...* — dodağının altında mızıldandı.

Son bir neçə ayda onun başına çoxlu ağlasığmaz, heyrətamiz hadisələr gəlmişdi və bütün bu aylar ərzində yalnız bir şeyə — arvadının qəlbinin təmizliyinə əmin olmuşdu. Ona bənzəyən başqa heç kəsə rast gəlməmişdi. Arvadı ona günün günorta çağı onun gözünə görünmüş mələk barədə danışmışdı. Bəlkə qonşu oğlanlardan kimsə onunla zarafat etmək istəmişdi. Bəs, Yusifin yuxusuna girmiş mələk? Bəlkə o, Tanrının elçisi idi... yaxud birdən şam yeməyindən sonra şərabı bir az artıq içməsinin təsiri olub? Bəs, onun dayısı ilə olan əhvalat — onun arvadı

doğana qədər kişi danışa bilmirdi. Bəlkə sadəcə boğazı soyuqlamışdı?

Bəs onun bu hekayəti nə olsun, deyir ki, bakirə olan vaxt qoynuna uşaq düşüb? Məryəm heç vaxt yalan danışmaz. O, mələk qədər safdır! Əgər o deyirsə ki — bakirədir, deməli bakirədir. Əgər o deyirsə ki, bətnində gəzdirdiyi körpə Tanrının Oğludur — nə etməli, ümid etmək qalır ki, oğlan Ataya oxşayacaq.

Məryəm — dəyirmisifət idi, boyu o qədər də hündür deyildi — onu gözəl adlandırmaq olmazdı. Hamiləlikdən xeyli əvvəl dolğun bədənli idi. Lakin gözləri həmişə işıq saçar, ürəyi isə Aralıq dənizindən böyükdür. Onun üzündən təbəssüm əskik olmur, üzü həmişə məzəli bir əhvalat danışmağa hazırlaşan adamın üzünü xatırladırdı. Bax, bu cəhətlərinə görə, onun bu dünyada tayıbərabəri yox idi. Yusif Məryəmin yerindən

qalxdığını, ərinin oturacaqdakı yerini onunla qonşuluqda əyləşmiş yaşlı qadına verdiyini gördükdə, başını yırğaladı.

Kişisi etiraz etmək istəyirdi, lakin Məryəm yerindən qalxarkən üzündəki ifadə etiraza yer qoymadı.

Bir qədər ayaqüstə dayanmağım gərəkdir, — deyə o dilləndi və adamların arasından keçərək, Yusifə sarı yönəldi.

Əlbəttə, o ümid edirdi ki, doğuş vaxtı Nazaretdə olacaq, hər halda — orada onların qohumları yaşayır. Bet-Lexemdə isə heç kəsi tanımırlar.

Yusif onun əlindən tutdu və onlar kürəklərini divara söykədilər.

— Sən əminsənmi ki, yola davam etmək istəyirsən?

O, başı ilə təsdiqlədi və onlar adamlardan üzr istəyə-istəyə onların arasından çətinliklə yarıb keçdilər.

— Bir qurtum su olsaydı, — deyə Məryəm xahiş etdi.

— Yaxşı, indi gətirirəm. Burada gözlə.

Quyunun başında Yusifin növbəsi çatana qədər Məryəm qapıya söykəndi. Ərinin növbədə ondan əvvəl dayanmış kişi ilə asanlıqla dil tapdığını gördükdə gülümsündü. Onlar ikilikdə qayıtdılar.

— Məryəm, bu Simondur. O da Bet-Lexemə gedir. Onun öküz arabası var, bizi aparmağı təklif edir.

— Sağ olun. Siz çox xeyirxahsınız.

Simon gülümsündü.

— Nə danışırsınız, sadəcə yol yoldaşları ilə birlikdə getmək mənə xoş olardı. Eşşəyinizi mənim arabamın dalına bağlarsınız.

— Bağışlayın, mən təsadüfən eşitdim ki, Bet-Lexemə gedirsiniz. Mənim üçün də yer tapılarmı?

Bu sözləri deyən uzun ağ saqqalı sənəsinə

tökülmüş bir qoca idi. Görkəmindən ravvin olduğu bilinirdi. Simon cavab əvəzinə başını tərpədərək, qocanı onlara qoşulmağa dəvət etdi.

Məryəmi arabaya əyləşdirən Yusif çevrilərək ravvinə də arabaya əyləşməsində kömək etdi.

— Bağışlayın, adınız nədir?

— Cəbrayıl, — deyə mən cavab verdim və Məryəmlə üzbəüz yerimi rahatladım.

Equs Simonun arabasından irəlidə, Paraqon — arxada uçurdu. Hər ikisi sayıq idilər. Qanadları geniş açılmış və qılıncları qınlarından çıxarılmışdı. Karvansarada dayanana qədər mən onlarla uçurdum, lakin bu araba nəsə mənə şübhəli göründü və mən adam cildini aldım. Lakin dərhal heyfsiləndim ki, gərək gənc alverçi görkəmi alaydım, çünki saqqalım yamanca qaşınırdı.

Döyüşçülərimə nəyisə xatırlatmağa lüzum yox idi, lakin hər ehtimala qarşı bir daha təkrarladım:

— ŞEYTAN İMMANUİLİN
DOĞULMASINI İSTƏMİR.
HƏR KƏS SAYIQ OLSUN!

Mələklər arabanı görünməz divarla — on iki müdafiə xətti ilə əhatəyə almışdılar. Mənim saqqalıma bir az gülməyim tutdu. Simon gözü bağlı arabanı sürüb gedə bilərdi. Dünyada heç bir qüvvə onun arabasını yolundan döndərə bilməzdi.

Yol kələ-kötür idi və biz piyada yolçular qədər yavaş gedirdik, lakin Məryəm indi heç olmasa bir qədər dincələ bilərdi. O, gözlərini qapamış və başını arabanın yan tərəfinə söykəmişdi. Mən onun bətnindən saçılan

parıltını görürdüm. Anasının qoynunda O təmizləyici, şəfaverici bir alov kimi parıldayırdı. Hələ doğulmamış olsa da, mən Ona baş əydim. Qəlbim sevinclə dolmuşdu və mən ona mədhiyyə nəğməsi oxuyurdum, bu nəğmə Onun tərəfindən eşidilirdi. Məryəm Onun necə tərpəndiyini hiss etdi, mən gülümsündüm. Mənim döyüşçülərim bu alqışları eşidib nəğməyə qoşuldular.

Hardasa bir saat keçdi, mən birdən hiss etdim ki, o — burdadır. Şər. Bütün bədənim gərildi. Aşkarca hiss edirdim ki, düşmən hardasa yaxınlıqda, yol üstündədir. O, yolla gedən yolçuların arasında gah görünür, gah da yoxa çıxırdı. Mələkləri xəbərdar etdim:

— Hazırlaşın!

Sofio uçub arabaya yaxın gəldi və pıçıldadı:

— O, udmağa bir şey axtaran aslan kimi elə hey vurnuxur.

Onunla razılaşaraq dinməzcə başımı tərpətdim və arabanın yanı ilə gedən adamlara nəzər salmağa başladım.

Bizə cavan bir adam yanaşdı. O, Məryəmə üz tutdu:

— Bərk yorğun görünürsünüz. Bir içim su istəmirsiniz ki?

— Sağ olun, — deyə Məryəm cavab verdi və uzadılmış su dolu tuluğu götürməyə hazırlaşdı. Mən ayaq üstə sıçradım və guya təsadüfən şeytanın əlinin altından vurdum. Su dolu tuluq yerə düşdü və mən Məryəmdən və Yusifdən üzr istəməyə başladım. Yalnız cavan oğlan ona ünvanlanmış sözləri eşidə bilərdi:

— SƏN,
CƏHƏNNƏM ƏNTƏRİ!

BU TANRI QIZINA TOXUNMA!

İblis öz adi cildinə düşdü və qılıncını çəkdi.

— İndi sənin qalib gəlmək şansın yoxdur, Cəbrayıl, — deyə o səsləndi və qəfildən dörd bir tərəfdən onlarca şeytan törəməsi peyda olaraq Məryəmin üstünə cumdular.

— Yusif, — deyə o qışqırdı və qarnından tutdu, üzü ağrıdan əyildi. — Nəsə halım yaxşı deyil. Hiss edirəm ki, sanki kimsə mənim qarnıma vurur! Bu... yaman ağrıdır!

Mən dərhal mələk cildinə düşdüm və onu qanadımın altına alaraq düşmən qılınclarının yolunu kəsdim. Mən onların qılınclarının canıma işlədiyini hiss edirdim — lakin əvəzində Məryəmi qoruya bilmişdim. Şeytanların arxasında Paraqonu və daha yeddi mələyi gördüm. Onlar qəzəb və hiddətlə sağa-sola qılınc çalırdılar. Bu hal şeytanları bir qədər yayındırdı, lakin buna baxmayaraq onlar özlərini Məryəmə yetirməyə can atırdılar.

Araba silkələnməyə başladı. Sərnişinlər vahiməyə düşmüşdülər. Mən qışqırtı eşitdim. Çevrildikdə gördüm ki, Simon boğazını tutmuşdur. Onun üzü qıpqırmızı qızarmış, gözləri az qalırdı hədəqəsindən çıxsın. Onun boynunda şeytanın nazik və incə barmaqları qıvrılırdı. Başqa bir şeytan hoppanıb öküzün belinə minmiş və heyvanı yolun kənarındakı yarğandan atılmağa məcbur etmək istəyirdi.

Yığnaqdan kimsə qışqırdı.

— ARABANI DAYANDIRIN!

İRƏLİDƏ UÇURUM VAR!

Qoçaqlardan kimsə cilovdan yapışmağa cəhd etdi, lakin dayanaraq yerində quruyub qaldı. Sonralar o danışırdı ki, qorxudan yerində donub qalmışdı. Lakin bilmirdi ki, bu belə deyildi — şeytanlardan biri onu bir anda tora salıb, torun ucunu yerə mıxlamışdı.

Simon ağzını açdı, o nəfəs almaq istədi və böyrü üstə yıxılmağa başladı. Başa düşdüm ki, o — ölüdür. Havalanmış öküz tam sürətlə uçuruma gedirdi. Mən Məryəmə nəzər saldım. Yusif onun çiynindən qucaqlamış, Məryəm qarnından tutmuşdu. Bilirdim ki, bir neçə saniyədən sonra yarğandan — aşağılarda uzanıb gedən vadiyə yuvarlanacağıq. Arabaçı — ölü, araba — idarəedilməz. Mən döndüm və üzümü Yeganə, bizə kömək edə biləcək Kimsənəyə tutub dua etdim.

Onun səsi Məryəmin bətnindən gəldi. Valideynləri Onun səsini eşidə bilməzdilər. Onun dilindən çıxan söz, Məryəmin və ya Yusifin qulaqları üçün deyildi. Yalnız səmavi və cəhənnəm döyüşçüləri bu sözləri eşidə bilərdilər. Onlar bu səsi eşidən kimi donub qaldılar.

## — HƏYAT!

Bu hökm qüdrətli bir dalğa kimi, eynilə bir vaxt Edən bağını doldurduğu sayaq axıb arabanı doldurdu. Şeytanlar qorxu içərisində, siçovullar kimi dörd bir yana qaçışmağa başladılar.

— HƏYAT! — bu söz ikinci dəfə eşidildi.

Hava onun ciyərlərini yenidən dolduranda Simon öskürdü.

— Cilov! — deyə mən qışqırdım.

O qışqırdı, cilovdan yapışdı, özünü düzəldərək, cilovu dartdı. Onun gözlərini doldurmuş yaşların arasından yolun qırağını görə bildi və sövq-təbii olaraq cilovu özünə çəkib öküzü dayandırmağı bacardı. Təhlükə sovuşmuşdu.

Lakin şeytanların qaçışmasına baxmayaraq, mən risk etməmək qərarına gəldim. Mən

Sofionu yanıma çağırdım və təcili sərəncam verdim:

— Onlar Məryəmi yolda tapdılar, onu karvansaradakı otağında da tapa bilərlər. Bu baş verməməlidir.

Sofio əlini alına apardı və irəliyə, Bet-Lexem karvansarasına uçdu.

Məryəm əvvəlki tək işıq haləsinin altında qalırdı. Yusif həyəcan içində ona baxırdı, o isə mənim himayəm altında sakitləşmişdi.

— İndi halım yaxşılaşdı, — deyə Məryəm dilləndi. — Bəs, bizimlə gedən ravvin hanı?

— Doğrudanmı sizdə bir boş otaq yoxdur? — Yusif yalvarıcı səslə soruşdu.

— Vardı, əlbəttə, çoxlu boş otaqlarımız vardı! Fəqət sizdən azca əvvəl xeyli adam gəldi və onlar bütün otaqları, bütün çarpayıları — sonuncusuna qədər tutdular! Arvadınla sənin üçün məndə yer qalmayıb.

Yusif hövsələli olmağa çalışırdı, lakin getgedə dişini daha bərk qıcamağa başlamışdı.

O, irəliyə elə əyilmişdi ki, üzü mehmanxana sahibinin sifətindən bir neçə santimetr aralı idi.

— Arabadakı o qadını görürsənmi? — dişlərini bir-birinə sıxaraq soruşdu. — O mənim arvadımdır. O, hər dəqiqə doğa bilər. Biz bu araba ilə yol gələndə, bu gün gündüz az qalmışdı yolda doğsun. İndi isə ağrıları ona əzab verir. İstəyirsiniz ki, elə burda, sizin qapının ağzında doğsun?

— Yox, əlbəttə yox, lakin sizə kömək edə bilmirəm. Məni başa düşün, mehmanxanamda boş yer qalmayıb...

— Bunu artıq eşitdim, lakin gecə düşüb, küçədə soyuqdur. Sizin elə bir isti yeriniz heç yoxdur ki, orada gecəni başa vuraydıq?

Mehmanxana sahibi dərindən nəfəs aldı, Məryəmə, sonra Yusifə baxdı. Evə girdi və əlində çıraq qayıtdı.

— Orada, evin arxasında aşağıya enən cığır

var. Onunla gedin, bu cığır sizi tövləyə aparar. Ora tər-təmizdir, yəni demək istəyirəm təmiz tövlədir, — çiyinlərini çəkib əlavə etdi: — Özü də kifayət qədər isti yerdir.

Yusif qulaqlarına inanmaq istəmədi:

## — SƏN İSTƏYİRSƏN Kİ, BİZ TÖVLƏDƏ GECƏLƏYƏK?

— Yusif, — Məryəmin səsi gəldi. O, bütün bu söhbəti eşitmişdi. Yusif döndü və ona nəzər saldı. O, gülümsünürdü. Bildi ki, bu gülümsünmə nə deməkdir: mübahisə etdiyiniz yetər.

Yusif dərindən nəfəs aldı:

— Yaxşı, sağ ol, — deyə razılaşdı və çırağı götürdü.

— Qəribədir, — deyə Məryəm və Yusif getdikdən sonra mehmanxana sahibi doda-

ğının altında mızıldandı. Arvadına dönüb soruşdu: — Bütün otaqları götürən adamın adı nəydi?

Qonaqların qeydiyyat kitabını açaraq, qadın yazılara baxdı və cavab verdi:

— Qəribə adı var: Sofio. Yəqin hansısa bir yunan olmalıdır.

Biz tövləni işıq dairəsi ilə əhatəyə aldıq, ondan işıqsaçan boyunbağılar asdıq. Bütün mələklər, hətta Mikayıl da oraya yığışmışdılar. Heç kəs şübhə etmirdi ki, Tanrı Öz vədini yerinə yetirəcək, lakin heç kəs bilmirdi ki, məhz bunu O nə tərzdə edəcəkdir.

— Mən su qızdırdım!

— Niyə belə qışqırırsan, Yusif? Mən onsuz da səni gözəl eşidirəm.

Yusif pıçıltı ilə danışsa belə, Məryəm onu eşidərdi. Tövlə onun təsəvvür etdiyindən də kiçik idi, lakin mehmanxana sahibi haqlı idi — bura kifayət qədər təmizdi. Mən qoyun-

ları və inəkləri oradan qovub çıxarmağa başlamışdım, lakin Mikayıl məni dayandırdı:

## — ATA İSTƏYİR Kİ, BÜTÜN VARLIQLAR BUNU GÖRSÜNLƏR.

Məryəm qışqırdı və Yusifin əlindən tutdu, digər əli ilə ot doldurulmuş axurdan yapışdı. Bərk sancı onu qalxmağa məcbur etdi, sonra irəliyə əyildi.

— Nədir, yoxsa artıq doğursan? — Yusif soruşdu.

O bir söz deməyərək yalnız ərinin üzünə baxdı, əri onu başa düşdü.

Saniyələr keçmiş hamının Gözlədiyi doğuldu. Mənə ər-arvadın yanında, Mikayıldan yalnız bir addım geridə postda dayan-

maq şərəfi nəsib oldu. Biz Körpənin turşumuş üzünə baxırdıq. Yusif axura ot düzdü, axurun bəxtinə İsanın ilk çarpayısı olmaq düşmüşdü.

Körpə tamam-kamal Ataya bənzəyirdi. Onun üzündən və əllərindən işıq saçılırdı. Mən Onun taxt zalında olarkən gördüyüm eyni cəlal, eyni əzəmət indi Onun bütün vücudunda bərq vururdu.

Anladım ki, oxumalıyam, lakin bilmirdim məhz nəyi oxuyum. Bunun üçün münasib gələn nəğməmiz, münasib sözümüz yox idi. Biz əvvəllər heç vaxt Tanrını körpə simasında görməmişdik. Tanrı ulduzları yaradanda bizim mədhiyyələrin sözləri eşidilən səslə bütün kainata yayılmışdı. O, Öz xidmətçilərini xilas edərdi və bizim səslərimiz Ona mədhiyyələr oxuyardı. Onun taxtının qarşısında bizim mədhlərimiz bitib-tükənməzdi. Lakin heyvanların

axurunda uzadılmış Tanrını hansı nəğmə ilə mədh etməli?

Bu anda möcüzə baş verdi. Biz körpə İsaya tamaşa edərkən bizim görünməzlik pərdələrimiz tökülməyə başladı. Mələk legionu açığa çıxdı.

Bizim şüurumuz əvvəllər bilmədiyimiz həqiqətlərlə doldu. İlk dəfə Atanın niyyəti bizə əyan oldu — Onun adını daşıyanı xilas etmək. O, bizə baş verməli olanı açıqlamışdı. Eyni zamanda mələklərdən hər biri təəccüb və qorxu ilə öz baxışlarını Körpəyə, dəqiq deyilsə, onun deşiləcək olan əllərinə yönəltdilər.

— Onlara mıx çalınanda, — Tanrı bizə belə demişdi, — siz Onu xilas edə bilməyəcəksiniz. Siz bunu görəcəksiniz, bunu eşidəcəksiniz, siz Onu xilas etmək istəyəcəksiniz, lakin bunu etməyəcəksiniz.

Paraqon və Equs mənə sarı çevrildilər, baxışları ilə yalvarıb məndən izahat is-

təyirdilər. Mənim onlara deməyə sözüm yox idi. *Mən öz Hökmdarıma xidmət edirəm və mən durub baxmalıyam ki, Ona necə əzab verirlər?* Mən Mikayıla baxdım, onun sifəti çəkdiyi əzablardan daşa dönmüşdü. Anladım ki, o da mənim keçirdiyim hissləri yaşayır. Eşitdiyimiz əmr bizim üçün dərkedilməz idi:

— SƏN ƏZAB ÇƏKƏRKƏN BİZ NECƏ SUSA VƏ HƏRƏKƏTSİZ DAYANA BİLƏRİK? — deyə biz xorla soruşduq.

Cavab gəlmədi.

Sofio nəsə pıçıldadı. Onun sözlərini eşitməkdən ötrü ona yaxın gəldim.

— Körpə bizə verilmişdir. Tanrı öz Oğlunu bizə bəxş etmişdir. O Öz xalqını çə-

kib arxasınca aparacaq. Onun bu adlarla tanıyacaqlar:

MÖCÜZƏ GÖSTƏRƏN,

MƏSLƏHƏTÇİ,

MÖHKƏM TANRI,

ATA, ƏBƏDİ MÖVCUD,

DÜNYANIN SAHİBİ.

O, onların günahlarına görə yaralanacaq, onların törətdikləri şər əməllərə görə işgəncə görəcək. Elə bir cəza ki, bunun sayəsində onlar şəfa tapacaqlar. O, bunu Özünə götürəcək. Onun yaraları ilə onlar şəfa tapacaqlar.

Hökmdarın taxt zalında ilk dəfə eşitmiş olduğum sözləri mən yenidən eşitdim. Lakin onları mən indi-indi başa düşdüm.

*Deməli, bu Odur. İmmanuil. Tanrının insanlara bəxş etdiyi nemət bu özüdür ki var. Xilaskar. O Öz adamlarını onların günahlarından xilas edəcəkdir.*

— Layiqli Tanrı Quzusu, — deyə öz Tanrım qarşısında baş əyərək pıçıldadım. Ürəyim duyğularla dolub-daşdı. Mən Körpəsinə layla deyən Məryəmə sarı döndüm və danışmağa başladım. O, məni eşidə bilməzdi və bunun bir mənası da yox idi. Səma ulduzları isə eşidirdilər. Tanrının bütün yaratdıqları mənim sözlərimi eşidirdi. Ən başlıcası isə, mənim Hökmdarım məni eşidirdi.

— Sən bilirsənmi, Məryəm, qollarında Kimi tutmuşsan? Sənin qolların üstə Olan Nemətlər bəxş edəndir. Həmin bu Əbədi Mövcud adlandırılacaq Kəs bu saat Öz

həyatının ilk anlarını yaşayır. Həmin bu Hüdudsuz adlandırılacaq Kəs sənin döşlərindən bərk-bərk yapışıb süd əmir. Ayaqları ulduzların arasında gəzəcək Kəsin ayaqları indi ilk addımını atmaqdan ötrü hələ çox zəifdir. Bütöv okeanları ovcuna sığışdıra biləcək ovuclar indi balaca körpə əlləridir. Heç kəsin heç vaxt bircə sual belə vermədiyi Kəsə sən küləyin necə adlandığını öyrədəcəksən. Həmin bu heç vaxt büdrəməyəcək Kəsi sən əllərində gəzdirəcəksən. Heç vaxt aclığın nə olduğunu bilməyən Kəsi sən döşlərindən əmizdirəcəksən. Bütün yaradılışın Hökmdarını sən əllərində tutmuşsan.

— Bu nə məhəbbətdir belə? — deyə Mikayıl pıçıldadı və yenidən hamı xoş heyrət bürümüş halda sükuta qərq oldu. Nəhayət, Mikayıl yenidən ağzını açdı, amma bu dəfə ağızını — oxumaq üçün açmışdı. O, çox

pəsdən, yavaş-yavaş, sözləri ayrı-ayrılıqda tələffüz etməklə başladı:

— EŞQ OLSUN,

EŞQ OLSUN,

UCA TANRIYA EŞQ OLSUN!

Bir-birimizin ardınca hamımız ona qoşulduq.

— EŞQ OLSUN,

EŞQ OLSUN,

UCA TANRIYA EŞQ OLSUN!

Tədricən bizim nəğməmiz daha da ucaldı, onun tempi isə sürətləndi. "Eşq olsun, eşq olsun Uca Tanrıya! Eşq olsun, eşq olsun Uca Tanrıya! Eşq olsun, eşq olsun Uca Tanrıya!"

Bizim mədhiyyəmiz bütün kainata yayıldı. Ən uzaq qalaktikalarda, ən uzaq planetlərdə onun səsindən hətta toz-duman qalxdı və bizim mədhiyyənin sözləri ilə həmahəng rəqs etməyə başladı. Okeanların dərinliklərindən sular qaynamağa, mədhiyyə burulğanları yaratmağa başladılar. Ən xırda cisimciklər çox böyük ulduz bürcləri ilə birlikdə, bütün yaradılış bizimlə birlikdə

# İMMANUİLİ,

## CANLIYA ÇEVRİLMİŞ TANRINI

tərənnüm edirdi.

# SON SÖZ

Vərdiş etdiyimiz Milad obrazları: yatan Körpə, heyrətlənmiş çobanlar, nəvazişlə İsanın üzərinə əyilmiş Məryəm bizdə ılıq, xoş və fərəhli duyğular oyadır, bizə dinclik və əmin-amanlıq duyğusu bəxş edir. Matt və Lukanın İncillərində Onun barəsində oxuduğumuz vaxt Milad bizə belə görünür. Vəhylər Kitabında isə Yəhya bizə hadisələrə bir qədər başqa bucaq altında baxmağı təklif edir. Yəhya bizə göstərir ki, İsanın doğulması bizdə təkcə vəcd duyğuları oyatmır — qara qüvvələr də oyanır və fəal hərəkətə başlayırlar.

Səmavi pərdəni açmaqla, o, ruhani aləmində aparılan amansız müharibəni təsvir edir. Yəhya doğmağa hazır olan qadını görür. O, öldürməyə hazır olan əjdəhanı görür. Qadın gözəl, əjdəha iyrəncdir. Əjdəha yeni doğulmuş Körpənin üstünə cumur, lakin çox gecdir — Körpə öz anası ilə birlikdə artıq təhlükəsizlikdədir. Yəhya ardınca yazır ki, "səmada müharibə baş verdi: Mikayıl və onun mələkləri əjdəhaya qarşı, əjdəha və onun mələkləri isə onlara qarşı döyüşürdülər". (Vəhy: 12:7).

"Səmada müharibə"... Mən bu müharibə barədə düşünməyə başladım: bu nə vaxt başlandı, kim kimə qarşı vuruşurdu, bu müharibə nəyin üstündə gedirdi. "Mələyin danışdığı hekayət" — mənim düşüncələrimin məhsuludur.

Bəzi həmkarlarım bu kitabın yaranmasına öz töhfələrini vermişlər. Yucin Peterson — Vəhy Kitabı haqqında "Reversed Thunder" ("Şimşəyin əks-sədası") adı altında çap edilmiş düşüncələri ilə, Filipp Yansi — "Christianity Today" jurnalının 12 dekabr 1994-cü il sayında dərc edilmiş özünün "Cosmic Kombat" ("Kosmik döyüş") məqaləsi ilə mənə yardımçı olmuşlar. Bu son məqalə bəzi hadisələrə və təzahürlərə başqa gözlə baxmaqda kömək etdi. Eləcə də, "Earthward, Earthward, Messenger Bright" hekayəsinin müəllifi Deyvid Lambertin qarşısında borcluyam. "Moody Monthly"nin 1982-ci il dekabr sayında dərc edilmiş bu əsər Milad tarixçəsinə yeni, yaradıcı baxışdır. Elə bu hekayə də məni "Mələyin danışdığı hekayət"i yaratmağa ruhlandırdı.

Eləcə də mən Stiv Qrin, Karen Hill, Liz Hiney və "W Publishing Group" nəşriyyatının gözəl kollektivinə də mənə bu kitab üzərində işlərkən göstərdikləri köməyə görə minnətdarlığımı bildirmək istərdim.

"Mələyin danışdığı hekayət" hansısa dərəcədə mənim fantaziyalarımın məhsuludur. Bütün qalanlarında mütləq dərəcədə həqiqətə uyğundur. Mənim yazdıqlarımın sizin xoşunuza gəlib-gəlmədiyi o qədər də mühüm deyil. Müqayisəyəgəlməz dərəcədə vacib olan odur ki, hekayətin təməlində dayanan əhvalata siz necə baxırsınız.

Misal üçün, Əhdi-Ətiq və Əhdi Cədiddə İsanın İlahi mahiyyətinin olduğu qab, Flumar adlı qüdrətli iblis və ya mələk Sofio, eləcə də digər personajlar və kitabda təsvir olunan hadisələr barədə heç yerdə xatırladılmır. Eyni zamanda, Müqəddəs Yazılar tam aydınlığı ilə deyir ki,

“BİZİM DÖYÜŞÜMÜZ
QAN VƏ CANA QARŞI DEYİL,
HÖKM EDƏNLƏRƏ, HAKİMİYYƏT
SÜRƏNLƏRƏ QARŞI, BU
ƏSRİN ZÜLMƏT HÖKMRANLARINA
QARŞI, GÖY ALTININ
ŞƏR RUHLARINA QARŞIDIR”.

Ef. 6:12

Müqəddəs Kitab tora salınmış mələklər barədə, İblisin Cəbrayılı şirnikdirici sözlərlə yoldan çıxarmağa, ağlını oğurlamağa çalışması barədə heç nə demir. Halbuki Əhdi-Ətiq və Əhdi-Cədiddə aydınca deyilir ki, iblis realdır və onun can atdığı hər şey — “Uca Yaradana bənzəmək üçündür”. (Bax. Yeş: 14:14).

Bütün İlahi yaradılış iki düşərgəyə bölünmüşdür. Birində — Tanrıya xidmət edənlər, digərində — iblisə xidmət edənlərdir. İblis mömin olmayanları hərəkətə gətirir və ruhlandırır (bax. Ef: 2:2), Tanrı isə Ona inanlar üçün həyat mənbəyidir (bax. Filp: 2:13). Möminllər iblisin varlığını yadda saxlamalı, lakin ondan qorxmamalıdırlar. İblis kimisə udmaq üçün hər yeri vurnuxan aslan kimidir (bax. 1 Pet: 5:8), lakin möminlər qorxuya düşməli deyillər, çünki onların qəlbində Yaşayan Kəs “dünyanın ən böyüyüdür” (1 İn: 4:4). Bizə Tanrı ilə silahlanmaq gərəkdir ki, “şeytanın fitnələrinə qarşı vuruşa bilək” (Ef: 6:11) və yadda saxlamalıyıq ki, iblis “nur Mələyi cildinə girir” (2 Kor: 11:14).

İblislə çarpışarkən istifadə etdiyimiz silah — Cəbrayılda və səmavi döyüşçülərdə olanlardır — dua, mədhlər, həqiqət və inam. Biz öz qüvvəmizə deyil,

Tanrının qüvvəsinə inanır və ona bel bağlayırıq. “Beləliklə, belinizə həqiqət qurşağı bağlamaqla düzü-lün və möminliklə silahlanaraq döyüşə girin, ayağınız-dakı ayaqqabılar da sizi düz yolla aparsın; ən yaxşısı üzünüzə iman qalxanı tutmaqdır, bununla bütün odlu fitnə oxlarını söndürə bilərsiniz; başınıza nicat dəbil-qəsi qoyun və əlinizə mənəviyyat qılıncı götürün — bunlar hamısı Tanrı Sözündə var. Hər vaxt ona dualar və iltimaslarla ürəkdən ibadət edin” (Ef: 6:14–18).

Nəhayət, Müqəddəs Kitab bizə taxt zalında görüş barədə, Tanrının Lütsiferə Ona qayıtmağı təklif etdiyi barədə heç nə demir. Lakin Müqəddəs Kitabda biz hər yerdə görürük ki, Tanrı Öz lütfünü qovulmuşlardan və haqq yolundan sapanlardan əsirgəmir. Belə görünür, O Öz lütfünü bizə, bizim Ona can atmağımızdan daha çox dərəcədə bəxş etmək istəyir. Bu ilahi sevgi bizi düşünməyə sövq edir: əgər bu qoca ilan mərhəmətə nail olmaq istəsəydi, bu mərhəmət, bu şəfqət peşində olan milyonların onu tapdıqları yerdə — İsa çarmıxının dibində buna qovuşa bilməzdimi?

Vəhy Kitabında rast gəldiyimiz “səmavi müha-ribə”nin təsviri bizim bütün suallarımıza cavab ver-mir, lakin onlardan ən başlıcasına cavab verir. Yəhya bizə Kimin Qalib Gəldiyini xəbər verir. Qalib gələn — Tanrıdır. Əgər Tanrı sizi xilas etməkdən ötrü belə bir savaşa girmişsə, deməli, siz, sizdən ötrü mü-barizə aparılmasına dəyirsiniz. Bu savaşda çox şey bizim üçün anlaşılmaz qalsa da, Onun bizə olan sevgisi şübhəsizdir. Tanrı gerçəkdən Öz Övladlarını sevir.

# İSANIN MİLADI MÜBARƏK!